AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**RÜXSARƏ MƏCİD QIZI ƏLİYEVA**

# ORTA İXTİSAS MƏKTƏBLƏRİNİN TƏLİM VƏ TƏRBİYƏ SİSTEMİNDƏ TƏLƏBƏLƏRİN SOSİAL FƏALLIĞININ FORMALAŞDIRILMASI

5804.01 - ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsində yetirilmişdir.

**Elmi rəhbər:** **Mircəfər Mirməsi oğlu Həsənov,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*professor*

**Rəsmi opponentlər:** **Fərahim Balakişi oğlu Sadıqov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor*

**Heydər Allahyar oğlu Cəfərov**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Pedaqogika və psixologiya kafedrası**

Müdafiə « 27 » sentyabr 2016-cı il tarixdə saat $14^{00}$ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** Az- 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» iyun 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi: **K.R.Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent

# G İ R İ Ş

**Tədqiqatın aktuallığı.** Yeni pedaqoji təfəkkür şəraitində tələbələrin sosial fəallığı özünəməxsus rol oynayır. İstənilən yaşda insanın, məktəblinin, tələbənin, işçinin sosial fəallığı tələb olunur. Sosial fəallıq insanın mürəkkəb vəziyyəti və həm də xüsusiyyəti, xassəsi kimi nəzərdən keçirilə bilər.

Özünüidarənin, demokratiyanın inkişaf etdirilməsi, vətəndaşların, təhsilalanların, xüsusən tələbələrin sosial fəallığının təmin olunması cəmiyyətin həyatında çox əhəmiyyətlidir. Cəmiyyətin inkişafı demokratiyanın, sosial fəallığın inkişaf etdirilməsini tələbata çevirir.

Hazırda kolleclərdə biliklərə, peşə ixtisasına yiyələnən tələbə oğlan və qızlar gələcəkdə müstəqil həyata qədəm qoyacaq, dövlətin və cəmiyyətin idarə edilməsinə yaxından qoşulacaqlar. Odur ki, kollec tələbələrinə özünüidarə, liderlik, icraçılıq, müstəqillik, təşəbbüskarlıq, təşkilatçılıq vərdişləri aşılamaq, onlarda sosial fəallıq təcrübəsi formalaşdırmaq yeni pedaqoji təfəkkür şəraitində son dərəcə aktuallıq daşıyır.

Təhsil alanlarda sosial fəallığın formalaşdırılması kolleclərin qarşısında duran ümdə vəzifələrdəndir. Sosial fəallıq fəallığın tərkib hissəsi olub tələbələrdə idarəetmə, özünüidarə vərdişləri yaradır, onların həyatda fəal mövqe tutmalarına kömək göstərir. Demokratik cəmiyyətdə, o cümlədən respublikamızda hər bir vətəndaş, o cümlədən tələbələr sosial fəallığa yiyələnməlidir. Ona görə də demək mümkündür ki, tələbələrin sosial fəallığı orta ixtisas məktəblərinin təlim və tərbiyə sistemində son dərəcə mühüm yer tutur.

Tədqiq olunan problemin aktuallığı ilk növbədə buradan irəli gəlir.

İkincisi, kolleclərdə təhsil alanlarda sosial fəallığın formalaşdırılması istiqamətində respublikamızda aparılan tədqiqatlar azlıq təşkil edir.

Üçüncüsü, tələbələrdə sosial fəallığın formalaşdırılması sahəsində ədəbiyyat azdır. Bu isə, kolleclərin pedaqoji kollektivlərinin həmin istiqamətdə öz işlərini səmərəli qurmalarına imkan vermir.

Sosial fəallığın inkişaf etdirilməsi şəxsiyyətin sosial mühitlə qarşılıqlı əlaqəsi və qarşılıqlı fəaliyyəti prosesində reallaşır. Tədqiqatlardan görünür ki, sosial qrup şəxsiyyətin sosiallaşması dövründə şəxsiyyət və cəmiyyət arasında vasitə kimi özünü göstərir. Kollec tələbələrində sosial fəallığın inkişaf etdirilməsi şəxsiyyət təşəkkülünün, gənclikdən sosial yetkinliyə nail olmağın nəticəsi kimi meydana gəlir.

Müşahidə və sorğulardan, aparılmış tədqiqatlardan görünür ki, bir çox tələbələr ictimai işlərə maraq göstərsələr də, bəzən onların maraqları

nəzərə alınmır, fəaliyyətləri təşkil olunmur. Doğrudur, bütün tələbələri ictimai tapşırıqlarla əhatə etmək olmur. Bu kimi hallarda çalışmaq lazımdır ki, həmin ictimai tapşırıqlardan kənarda qalanların imkanları daxilində fəallıqları təmin edilsin.

Sosial fəallıq şüurla, imkanlarla və qabiliyyətlərlə əlaqədardır. Sosial fəallığa aktiv praktik fəaliyyət sayəsində yiyələnmək olar. Sosial fəallıq şəxsi maraqla müşayiət olunur, müvafiq sosial bilik, bacarıq və vərdişlərə əsasən yaranır. Sosial fəallıq istənilən yaş dövründə səciyyəvi xüsusiyyətləri ilə fərqlənir, məqsədəyönəlmişlikdə, təşəbbüskarlıqda, özünə yüksək tələbkarlıqda, prinsipiallıqda və məsuliyyət hissində öz ifadəsini tapır, insan fəallığının dərk edilən, məqsədyönlü forması olur. V.L. Xaykinin nöqteyi-nəzərincə, insan və mühit arasında əlaqəni yaradan sosial fəallığın təzahürü sosial fəaliyyətdir. Sosial fəallığın inkişaf etdirilməsi sosial yetkinliyin yaranmasından ötrü ən yaxşı vasitə və şərtdir. Sosial yetkinlik insan həyatının əsas mərhələsidir.

İstər respublikamızda, istərsə də keçmiş ittifaqa daxil olan respublikalarında, həmçinin dünyanın digər ölkələrdə sosial fəallıqla bağlı bir sıra tədqiqatlar aparılmışdır. Həmin araşdırmalar şagird və tələbə özünüidarəsinin, sosial fəallıq tərbiyəsinin, şagird və tələbə kollektivinin təşkilinin ayrı-ayrı məsələləri ilə bağlıdır.

Tələbələrdə sosial fəallığının formalaşdırılması orta ixtisas məktəblərinin tərbiyə sistemində özünəməxsus yer tutur. Bu işin uğurla nəticələnməsi kolleclərin pedaqoji kollektivlərinin, müəllimlərin bu sahəyə diqqət və qayğısından, səriştəliliyindən və təbii ki, təşkilatçılıq qabiliyyətlərindən çox asılıdır. Onlar sosial fəallıq anlayışının mahiyyətinə aydınlıq gətirməzdən, ona tərif verməzdən əvvəl bu anlayışla sıx surətdə bağlı olan və onun əsasını təşkil edən "fəal", "fəallıq", "fəaliyyət" anlayışlarının mahiyyətindən xəbərdar olmalıdırlar. Tələbələrin sosial fəallığına həm təlim prosesində ayrı-ayrı fənlərin tədrisində, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə, kütləvi işlərin təşkilində nail olmaq mümkündür. Kollec tələbələrini akad. M.M. Mehdizadənin: "Şagirdlərin ictimai-siyasi fəallığı dedikdə, onların dərsdənkənar, məktəbdə və məktəbdən kənarda icra etdikləri elə işlər nəzərdə tutulur ki, bu işlər şüurlu, könüllü, təmənnasız olaraq məktəbin, kollektivin, ümumiyyətlə, xalqın mənafeyinə yararlı olsun" fikirləri ilə tanış etmək lazım bilinir.

Azərbaycanda akad. M.M. Mehdizadə məktəblilərdə ictimai-siyasi fəallıq mövqeyinin formalaşdırılması, prof. Ə.Ə. Ağayev, pedaqogika üzrə fəlsəfə doktoru K. Həsənov məktəb özünüidarəsinin fəaliyyəti, A. Aslanov internat məktəbləri şagirdlərinin ictimai fəallığı, N. Muradova məktəblilərin

təşkilatçılıq fəaliyyətinə hazırlanması problemləri üzrə araşdırmalar aparmışlar.

Professorlar A.N. Abbasov, F.A. Rüstəmov və Ə.X. Paşayev, L.N. Qasımova və R.M. Mahmudova, S. Şəfiyev, dos. Z. Əliyeva, G.B. Kazımova, T.M. Muradova və b. məqalə və dərsliklərində böyüyən nəslin sosial fəallığına və özünüidarə bacarıq və vərdişlərinin inkişafına öz münasibətlərini bildirmişlər.

S.T. Şatski, A.S. Makarenko, V.A. Suxomlinski və N.K. Krupskaya öz əsərlərində şagird kollektivinin təşkilinin ümumpedaqoji və nəzəri məsələlərini işıqlandırmışlar.

Bəzi tədqiqatlarda ictimai fəallığın sosioloji və fəlsəfi (E.A. Anufriev, M.S. Kaqan, A.S. Kapto, V.Q. Mordkoviç, M.M. Muradov və b.), digərlərində psixoloji (B.Q. Ananyev, L.İ. Bojeviç, N.F. Dobrının, D.İ. Feldşteyn, A. Kovalyov, İ.S. Kon, L.S. Slavina, L.İ. Umanski və b.), başqalarında pedaqoji (A.A. Əliyev, A.Ş. Aslanov, İ.A. Filippova, A.V. Kiriçuk, T.N. Malkovskaya, T.S. Paşayev, A.V. Zosimovski və b.) cəhətləri diqqət mərkəzinə gətirilmişdir.

İctimai, yaxud sosial fəallıqla bağlı tədqiqatların bir qismi müxtəlif yaş dövrlərinə aiddir. R.İ. Əliyev, Y.P. Jiqalova, İ. Klenova, L. Todorova, Q.D. İvanişvili – ibtidai sinif şagirdlərində, D.İ. Feldşteyn, İ.A. Xalippova, Q.İ. Xandamişvili, S.N. Lebedova, T.İ. Levkina, V.D. Leuxin, A.M. Medvedkova və L.E. Tokarskaya - yeniyetmələrdə, T.S. Paşayev, T.N. Malkovskaya, K.N. Meşalkina, N.Y. Narkeviç böyük məktəb yaşlılarda, N.A. Kuriçkis – texniki peşə məktəbləri şagirdlərində; O.V. Vasilyeva, P.N. Jaevı, E.M. Xarlanova, V.C. Xəlilov, N.İ. Kuznetsova, O.A. Rukavitsina, T.A. Strokova tələbə-gənclərdə fəallığın inkişaf etdirilməsinə münasibət bildirmişlər.

Haqqında danışılan tədqiqatlarda şəxsiyyətin təşəkkül tapıb formalaşmasında fəal həyat mövqeyinin rolu, sosial fəallığın inkişafının qanunauyğunluqları, sosial fəallığın hərəkətverici qüvvələri, motivləri, mənbələri və formaları öz ifadəsini tapmışdır.

Problemin aktuallığını nəzərə alaraq, dissertasiyanın mövzusunu aşağıdakı şəkildə müəyyənləşdirməyi məqsədəuyğun hesab etdik: "Orta ixtisas məktəblərinin təlim və tərbiyə sistemində tələbələrin sosial fəallığının formalaşdırılması".

**Tədqiqatın obyekti**. Kolleclərdə tələblərin sosial fəallığı üzrə təlim və dərsdənkənar fəaliyyətidir.

**Tədqiqatın predmeti**. Kollec tələbələrində sosial fəallığın formalaşdırılması prosesidir.

**Tədqiqatın məqsədi** kollec tələbələrində sosial fəallığın formalaşdırılması üzrə işin mahiyyətini, məqsəd və vəzifələrini, təlim prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə sosial fəallığın tərbiyə olunması üzrə işin imkanlarını aşkara çıxarmaqdan, sosial fəallığın həyata keçirilməsinin səmərəli yollarını müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın qarşısında onun məqsədindən və işçi fərziyyəsindən irəli gələn aşağıdakı **vəzifələr** dayanmışdır:

1. "Sosial fəallıq" və "tələbələrin sosial fəallığı" anlayışlarının mahiyyətini və məzmununu, tələbələrdə sosial fəallığın tərbiyə olunmasının xüsusiyyətlərini müəyyənləşdirmək.

2. Tələbələrdə sosial fəallığın tərbiyə olunması üzrə işin pedaqoji əsaslarına aydınlıq gətirmək.

3. Tələbələrdə sosial fəallığın tərbiyə olunması üzrə işin psixoloji əsaslarını işləmək.

4. Problem baxımından mövcud ədəbiyyatın təhlilini aparmaq.

5. Problem baxımından orta ixtisas məktəblərində mövcud vəziyyəti öyrənmək.

6. Tələbələrdə sosial fəallığın tərbiyə olunması probleminin təcrübi məsələlərini əhatə etmək.

8. Təlim prosesində tələbələrdə sosial fəallığın tərbiyə olunmasının imkanlarını və yollarını müəyyən etmək.

9. Dərsdənkənar tədbirlər zamanı tələbələrdə sosial fəallığın tərbiyə olunmasının imkanlarını və yollarını aydınlaşdırmaq.

10. Tələbə özünüidarəsinin fəaliyyətinə aydınlıq gətirmək.

11. Tələbələrin sosial fəallığının göstəricilərini və səviyyəsini müəyyənləşdirmək.

12. Eksperimentin təşkili, aparılması, nəticələri barədə təsəvvür yaratmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**İstifadə olunan metodlar**: *nəzəri təhlil və tərkib*; *pedaqoji müşahidə. pedaqoji müsahibə;* s*ənədlərin öyrənilməsi*; *riyazi-statistik metodlar*; *pedaqoji eksperiment.*

Tədqiqat zamanı eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə edilmişdir. Eksperiment 2011-2016-cı illərdə həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** kollec tələbələrində sosial fəallığın formalaşdırılması üzrə işin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti**: Tədqiqatda irəli sürülmüş əsas elmi ideyalar və təkliflər, müsbət təcrübə, problemlə bağlı iş sistemi, tədqiqatın nəticələri tələbələrin sosial fəallığı üzrə məqsədyönlü, səmərəli, sistemli və planauyğun işləri aparmaqda kolleclərin pedaqoji kollektivlərinə, müəllimlərə, qrup və kollec rəhbərlərinə, gənclər və həmkarlar təşkilatlarının nümayəndələrinə, şöbə müdirlərinə, tərbiyə işləri üzrə direktor müavinlərinə, valideynlərə kömək göstərəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tələbələrin sosial fəallığı, o cümlədən tələbə özünüidarə orqanlarının fəaliyyəti üzrə aparılan işin mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, təşkili yolları, xüsusiyyətləri, göstəriciləri müəyyənləşdirilmişdir. Tədqiqatda irəli sürülən elmi qənaətlər pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, tələbələrdə sosial fəallığın formalaşdırılması üçün səciyyəvi sayıla biləcək zəruri keyfiyyətlərin formalaşdırılması işinin elmi əsaslar üzərində qurulmasını təmin edəcəkdir.

**Müdafiəyə aşağıdakı müddəalar** çıxarılır:

1. Sosial fəallıq fəallığın yüksək formasıdır. O yalnız ictimai varlıq olan insana, insan qruplarına və cəmiyyətə xasdır.

2. Tələbələrdə sosial fəallığın formalaşdırılması imkanları onlar arasında aparılan məqsədyönlü, sistemli və fasiləsiz işdən səviyyəsindən çox asılıdır.

3. Təlim prosesində tələbələrdə sosial fəallığın inkişaf etdirilməsi bağlı aparılan işlər səmərəli nəticələnir.

4. Tələbələrdə sosial fəallığın formalaşdırılması üzrə təlim prosesində aparılan işlərin sinifdənxaric və məktəbdənkənar tədbirlərdə davam etdirilməsi vacibdir.

5. Sosial fəallıq şəxsiyyətin inteqral səciyyəsidir. Sosial keyfiyyətləri (dünyagörüşünü, müstəqilliyi, intizamlılığı, mütəşəkkilliyi, rəqabətəqabilliyi, məsuliyyət və cavabdehliyi, əməksevərliyi, təşəbbüskarlığı, kollektivçiliyi və s.); psixoloji (intellektin inkişafını, kommunikativ bacarıqları, iradi səyi, tələbatları, və s.); fiziki keyfiyyətləri (cansağlığını, sağlam həyat tərzini və s.) özündə birləşdirir.

Sosial fəallıq tələbələrin özünüidarə, iradi, ideya-mənəvi, əmək, ictimai, yaradıcı və iqtisadi fəaliyyətində təzahür edir.

6. Kollecin pedaqoji kollektivinin fəaliyyəti o zaman səmərəli olur ki, tələbələrdə sosial fəallığın formalaşdırılması imkanlardan həm təlim prosesində, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə istifadə olunsun. Bu baxımdan qrup və kollec rəhbərlərinin, direktorun tərbiyə işləri üzrə müavininin, məktəb psixoloqunun, gənclər və həmkarlar təşkilatlarının köməyi və əlbir fəaliyyəti önəmlidir.

**Tədqiqatın nəticələrinin tətbiqi**. Təklif edilən iş sistemi Bakı Sənaye Pedaqoji Kollecində və Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində tətbiq olunmuşdur. Dissertasiyada nəzərdən keçirilən problemlə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 və xarici ölkədə 1 məqalə nəşr olunmuşdur. İddiaçı eyni zamanda beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin mətnləri nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 8 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi öz əksini tapmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar verilmişdir.

**I fəsil "Kollec tələbələrində sosial fəallığın formalaşdırılması probleminin nəzəri məsələləri"** adlanır. Fəslin birinci yarımfəslində "Sosial fəallıq" və "tələbələrin sosial fəallığı", "fəal" və "fəallıq" anlayışlarının mahiyyəti" haqqında təsəvvür yaradılır. Bu məqsədlə "Azərbaycan dilinin izahlı lüğəti"nə, professorlar Ə.S. Bayramov və Ə.Ə.Əlizadənin fikirlərinə müraciət edilir. Həmin anlayışlarla sıx surətdə əlaqədar olan "fəaliyyətli", "fəaliyyətsiz", "fəaliyyətsizlik", "fəallaşdırmaq", "fəallaşma, fəallaşmaq"**,** anlayışlarına da aydınlıq gətirilir. Qeyd olunur ki, fəallıq şəxsiyyətin, o cümlədən kollec tələbələrinin dünyaya, ətraf gerçəkliyə və aləmə fəaliyyətyönümlü münasibəti, bəşəriyyətin əldə etdiyi tarixi təcrübəyə əsaslanmaqla maddi və mənəvi mühiti ictimai əhəmiyyətli dəyişmə qabiliyyəti olaraq, yaradıcı fəaliyyətdə, iradi aktlarda və ünsiyyətdə meydana çıxır. "Fəallıq" anlayışı elmin müxtəlif sahələrində həm müstəqil, həm də əlavə anlayış kimi işlənir. Bir sıra hallarda son dərəcə müstəqil anlayış kimi diqqət mərkəzinə gəlir. Məsələn, fəal insan, fəal işçi, fəal təlim, fəal metodlar, sistemin fəal elementi, fəal həyat mövqeyi, fəal vətəndaş mövqeyi və s. Didaktikada təlimin "Fəallıq prinsipi"ni qeyd edirlər. Bu prinsip təlim prosesinin səmərəliliyinin artırılmasında və optimallaşdırılmasında mühüm rola malikdir.

Sosiologiya elmində sosial fəallıq anlayışına müraciət edilir. Bu, artıq bizi daha çox maraqlandıran bir məsələdir. Bizim tədqiqat kollec tələbələrində sosial fəallığın formalaşdırılmasına həsr olunmuşdur. Sosial

fəallığa bir hadisə, bir təzahür, bir vəziyyət və münasibət kimi yanaşılmalıdır.

Akad. M.M. Mehdizadə yazırdı: "Şagirdlərin sosial fəallığı təkcə ictimai-siyasi səciyyə daşıyan şagirdlər birliyindən deyil, hətta elmi səciyyə daşıyan şagirdlər birliyi vasitəsilə həyata keçirilir".

Psixologiyada fəallıq vəziyyət kimi, şəxsiyyətin tələbatlarına və maraqlarına əsaslanan keyfiyyət və fəaliyyətə daxili hazırlıq kimi nəzərdən keçirilir. Fəallıq dedikdə, bunu təlim və tərbiyə vəzifələrinin həyata keçirilməsinə yönələn əqli, mənəvi, iradi və fiziki qüvvələrinin səfərbərliyə alınması kimi başa düşmək lazımdır. Fəallığın mənbəyini tələbatlar təşkil edir.

Fikrimizcə, şəxsiyyətin fəallığı dedikdə, özünün əsas xarakteristikalarının (məqsədyönlülük, motivasiya, şüurluluq, fəaliyyətin üsullarına və priyomlarına yiyələnmə, emosionallıq) səmərələşdirilməsi, eləcə də təşəbbüskarlıq və situativlik kimi xüsusiyyətlərə malik olması ilə fərqlənən fəaliyyətin xüsusi növü, yaxud xüsusi fəaliyyət anlaşılır.

Tələbələrin sosial fəallığını iki başlıca cəhətə görə nəzərdən keçirmək mümkündür. Birinci cəhət. Sosial fəallığa şəxsiyyətin ilk növbədə tərbiyə, təhsil, təlim və praktik fəaliyyət prosesində təşəkkül tapan təbii xüsusiyyətləri və müsbət keyfiyyətləri ilə şərtlənən xassələri kimi yanaşılır. Bu baxımdan sosial fəallıq sosial inkişafın əhəmiyyətli nəticəsi kimi tələbə oğlan və qızların insanın sosial mühitə, sosial təcrübəyə münasibətlərini əks etdirən sosial keyfiyyətlərini özündə birləşdirir. Bundan başqa, onlara göstərilən köməkdən faydalanaraq, həm özlərinin, həm də başqalarının sosiallaşma problemlərini müstəqil şəkildə həll etmək qabiliyyəti tələb olunur.

İkinci cəhət fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsində fəallığının rolunun tələbələr tərəfindən aydın dərk olunması ilə əlaqədardır. Sosial fəallıq orta ixtisas məktəbləri tələbələrin ictimai münasibətlər sisteminə daxilolma dərəcəsi və səviyyəsi, ictimai fəaliyyətin bütün növlərində onların iştirakı göstəricisidir.

Birinci fəslin ikinci yarımfəsli "***Kollec tələbələrində sosial fəallığın formalaşdırılması pedaqoji və psixoloji problem kimi***" adlanır.

Ülu Öndər Heydər Əliyev gənclərin sosial fəallığına xüsusi diqqət yetirirdi. Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin 2005-ci ilin avqustunda təsdiq etdiyi "Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)", 2007-ci ilin "Gənclər ili" elan olunması, gənclər forumlarının, tələbələrin və yaradıcı gənclərin I ümumrespublika toplantısı, gənc liderlər məktəbinin təşkili, elm, təhsil, dövlət idarəçiliyi, mədəniyyət, ictimai-siyasi və başqa sahələrdə uğurlar əldə etmiş gənclərin fəaliyyə-

tinin yüksək qiymətləndirilməsi baxımından mükafatların təsis edilməsi, gənc ailələrə və hərbi qulluqçulara ipoteka kreditlərinin verilməsi və s. bu kimi layihələr dövlət gənclər siyasətinin əhəmiyyətli tərkib hissəsi kimi gənclərin cəmiyyətin həyatında fəallığının yüksəlməsinə şərait yaratmışdır. Cənab Prezidentin Sərəncamına əsasən, hələ 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı qəbul olunmuşdur. Həmin Sərəncamdan irəli gələn vəzifələr baxımından gənc nəslin vətənpərvərlik hisslərinin qüvvətləndirilməsi, fəal vətəndaşlıq mövqeyi tərbiyəsi diqqət mərkəzinə gətirilmiş, istedadlı və yaradıcı gənclərə, gənc ailələrə dövlət qayğısı, onların mənzil şəraitinin yaxşılaşdırılması, dövlət quruculuğu işlərində iştirakının və məşğulluğunun, milli adət və ənənələrə bağlılığının təmin edilməsi, onların sahibkarlıq fəaliyyətinə kömək göstərilməsi və s. kompleks tədbirlər müvəffəqiyyətlə həyata keçirilmişdir.

Ölkə Prezidentinin 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası"nı təsdiq edilmişdir. Bu Strategiya gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakına nail olmaq məqsədi daşıyır.

Tələbə gənclərin sosial əlaqələrə və münasibətlərə daxil olması kollecdə onların təlim və tərbiyə sistemində, gənclər təşkilatında, ailədə, insanlarla, həmyaşıdları ilə ünsiyyətində, fəal ictimai-siyasi fəaliyyətində həyata keçir. İnsan amilinə münasibət bildirilən pedaqoji, psixoloji, sosioloji və fəlsəfi ədəbiyyatda şəxsiyyətin fəallığının onun maraqları ilə əlaqəsinə dair müddəa əsaslandırılır. İnsan amilinin fəallaşdırılması aparılmış məqsədyönlü ideya-tərbiyəvi iş nəticəsində mümkün olur. Bu isə öz-özlüyündə baş vermir, şəxsiyyətin şüurluluğunun təmin edilməsini tələbata çevirir.

Tələbə öz fəaliyyəti zamanı nəinki fiziki, psixoloji və s. baxımından, həm də sosial baxımdan inkişaf edir. Ona görə də onun inkişafı heç də yalnız ətraf aləmlə, ətraf mühitlə deyil, eyni zamanda ümumilikdə cəmiyyətlə qarşılıqlı fəaliyyətdə təzahür edir. Sosial amillərin dinamikası pedaqoji amillərə təsir göstərən sosial vəziyyətin yeni tipini şərtləndirir. Tərbiyə prosesini müəyyən edən amillər və şəxsiyyətin inkişafını diqqət mərkəzinə gətirən amillər (qabiliyyətlər, tələbatlar, dəyər, sərvət yönümləri, maraqlar və mənafelər, motivasiya və başqa struktur komponentlər) qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqdadır.

Orta ixtisas məktəbləri tələbələrinin sosial fəallıq tərbiyəsinin qarşısında dayanan əsas məqsədi belə ifadə etmək olar: yüksək mənəvi keyfiyyətləri, milli və ümumbəşəri dəyərləri, islam əxlaqının mühüm

cəhətlərini, yaradıcı fəallığı, müstəqillik və təşəbbüskarlığı və vətəndaşlıq mövqeyini özündə birləşdirən sosial baxımdan fəal şəxsiyyəti yetişdirmək.

Fəallığın təzahürünün bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı şəkildə bir-birinin yolunu kəsən formaları vardır: 1) *fəaliyyət* – mühitin və onun ayrı-ayrı elementlərinin insan tərəfindən yenidən qurulması; 2) davranış - mühitə münasibətdə şəxsiyyətin vəziyyətinin dəyişməsi və öz hərəkətlərini nizamlaması.

Fəaliyyətdə iştirak etməyin və davranışın sosial mühitdə öz yeri vardır. Şəxsiyyətin fəaliyyət prosesində və davranışında şəxsiyyətlərarası münasibətlər meydana gəlir ki, bunlar cəmiyyət və mühit tərəfindən qəbul edilən normalara uyğun olaraq qurulur.

Fəslin "***Kollec tələbələrində sosial fəallığın formalaşdırılması prosesində istifadə olunan pedaqoji prinsiplər və metodlar***" adlanan üçüncü yarımfəslində deyilir: Müasir aparıcı pedaqoqlar, psixoloqlar, filosof və sosioloqları belə hesab edirlər ki, hazırda gənclərin könüllü ictimai fəaliyyəti nəinki cəmiyyətin bir çox sosial problemlərini həll etməyə kömək edə bilər, həm də oğlan və qızların sosial əhəmiyyətli keyfiyyətlərinin inkişafını təmin edər, onlarda fəal həyati mövqe formalaşdırar. Odur ki, tələbələrdə sosial fəallığın tərbiyə edilməsi son dərəcə aktuallıq daşıyır. Sosial fəallığın səmərəli şəkildə formalaşdırılması bu sahədə aparılan işlər zamanı müəyyən prinsipləri nəzərə almaqdan çox asılıdır.

Dissertasiyada pedaqoji prinsiplərdən söz açmazdan əvvəl "prinsip" anlayışının mahiyyətinə aydınlıq gətirilir, tərif verilir. Müəllim, valideyn, yaxud tərbiyəçi tərbiyəvi iş, məsələn, kollc tələbələrinin sosial fəallığı üzrə iş apararkən müəyyən rəhbər müddəaları – prinsipləri əsas götürərək onlarla məşğul olmalıdır.

Kollec tələbələrində sosial fəallığın formalaşdırılması prosesində müəyyən metodlar da tətbiq olunur ki, aparılan iş səmərəli nəticələnsin. Lakin həmin metodlardan yerli-yerində, lazım gəldikdə və düzgün istifadə edilməlidir. Bu sahədə kolleclərin pedaqoji kollektivlərinin üzvlərinin səriştəli olması mühüm tələb kimi qarşıda dayanır. Onlar metodları sosial tərbiyə prosesinin məqsəd və vəzifələri, məzmunu, tələbə oğlan və qızların imkanlarını hesaba alaraq seçməlidirlər. Eksperimentə cəlb edilmiş kolleclərdə bu tələb ciddi gözlənilirdi.

İddiaçı pedaqoji ədəbiyyatı araşdıraraq, pedaqoqların tərbiyə metodlarının mahiyyəti və məzmunu, həmçinin metodların təsnifatı ilə bağlı fikirlərini öyrənmişdir. Məqsəd həmin fikirlərdən, təsnifatlardan faydalanaraq, kollec tələbələrində sosial fəallığın formalaşdırılması prosesində istifadə olunması əlverişli sayıla biləcək metodları müəyyənləşdirməkdən

ibarət idi.

İddiaçı dissertasiyada "tələbələrdə sosial fəallığın formalaşdırılması metodlarını müəyyənləşdirmiş və "metod" anlayışına tərif vermişdir. İddiaçıya görə, tələbələrdə sosial fəallığın formalaşdırılması metodları dedikdə, tələbələrin davranışına, hisslərinə, iradəsinə və şüuruna planauyğun şəkildə təsir etməklə onlarda sosial fəallıq bacarıqlarının inkişaf etdirilməsi məqsədinə və vəzifələrinə nail olmaq üçün kolleclərin pedaqoji kollektivlərinin, müəllimlərin faydalandığı yol və vasitələr, üsullar sistemi anlaşılmalıdır.

Eksperimentdə iştirak edən orta ixtisas məktəblərində müəllimlər və özünüidarə orqanlarının fəalları tələbələrdə sosial fəallıq vərdişlərini inkişaf etdirmək üçün şüura, ağıla, idraka təsir göstərən, əqidənin formalaşdırılmasına xidmət edən metodlar qrupunun, başqa sözlə, inandırma metodlarının söhbət, başa salma, xəbərdarlıq, öyüd, nəsihət, tövsiyə, xatırlama, dilətutma, müzakirə, disput və s. növlərinə (vasitələrinə); fəaliyyətin təşkilinə və mənəvi davranışı təcrübəsinin formalaşdırılmasına xidmət edən metodlar qrupunun, başqa sözlə, alışdırma metodlarının sərəncam, pedaqoji tələb, rejim, ictimai rəy, tapşırıq, yarış, tərbiyəvi vəziyyətin yaradılması, oyun, faydalı əmək və s. növlərinə; tələbələrin fəaliyyətini və davranışını stimullaşdıran metodlar qrupunun, başqa sözlə, rəğbətləndirmə və cəzalandırma metodlarının təşəkkür etmək, tərif, fəxri tapşırıq, tələbənin şəklini şərəf lövhəsindən asmaq, onun uğurları barədə divar qəzetinə yazmaq, tərifnamə, fəxri fərman, sertifikat və qiymətli hədiyyə ilə təltif etmək və s.; cəzalandırma metodu kimi məzəmmət, danlaq, tənbeh, töhmət, planlaşdırılmış hər hansı bir işi təxirə salmaq, məktəb divar qəzetində tələbənin karikaturasını çəkmək, radio qovşağında mənfi hərəkəti barədə danışmaq, tədbirlərdə, iclasda adını çəkmək və s. müraciət edirdilər.

Eksperimentə cəlb edilmiş orta ixtisas məktəblərində eyni zamanda müəllimlərin, tərbiyə işləri üzrə direktor müavininin, gənclər təşkilatı sədrinin, tələbə özünüidarə orqanı rəhbərinin, kollecin şöbə müdirinin və direktorunun müsbət nümunəsindən də sosial fəallığının formalaşdırılması metodu kimi geniş istifadə olunurdu.

Bundan başqa, nəzarət, özünənəzarət və özünüqiymətləndirmə (başqa sözlə, sosial fəalliyyət prosesinə nəzarət və onun səmərəliliyinin təhlili) metodunun imkanlarından faydalanırdılar.

Tədqiqatdan alınan nəticə budur ki, tələbələrdə sosial fəallığın formalaşdırılması məqsədilə rəhbər tələb və müddəa kimi götürülməsi vacib bilinən prinsiplərin və tətbiqi vacib bilinən metodların seçilməsi, konkret müəyyənləşdirilməsi və onlardan əlverişli şəkildə, yerli-yerində

istifadə olunması səmərəli nəticələr verir.

I fəslin dördüncü yarımfəsli *"Tələbə özünüidarəsi sosial fəallığın formalaşdırılmasının vasitəsi kimi"* adlanır. Bu yarımfəsildə diqqət mərkəzinə gətirilən məsələlər bunlardır: Orta ixtisas məktəbləri tələbələrində sosial fəallığın formalaşdırılması bu işin təhsilalanların müstəqilliyi, təşəbbüskarlığı, təşkilatçılıq bacarığının, istedadının, özünüidarəsinin nəzərə alınmasını tələb edir. Bu sahədə tələbə özünüidarəsi mühüm rol oynayır.

Kollecdə tələbə özünü idarəsi iki şəkildə təşkil olunur: ümumkollec və ayrı-ayrı qruplar üzrə. Tələbə özünüidarəsinin ali orqanı kollecin tələbə fəallarının konfransıdır. Fəallar kollecin tələbə şurası tərəfindən seçilir. Tələbə özünüidarəsinin fəaliyyətinin əsas mexanizmini kollektiv yaradıcı fəaliyyət təşkil edir. Tələbə özünüidarəsinin fəaliyyətinin məzmununu bir sıra önəmli layihələrin həyata keçirilməsi təşkil edir. Həmin layihələr üzrə tədbirlərin təşəbbüskarları, təşkilatçıları və həyata keçirənlər tələbələrin özləri olurlar.

Tələbə özünüidarəsi bir sıra əlamətlərə malikdir. Eksperimentə cəlb edilmiş kolleclərdə aşağıdakı əlamətlər diqqət mərkəzində dayanırdı: 1. Məqsədyönlülük – tələbənin özünüidarə orqanını özünün şəxsi fəaliyyətinin və inkişafının məqsədi hesab etməsi, könüllü fəaliyyətini kollecin əsas məqsədləri ilə, dövlətin gənclər siyasəti ilə uzlaşdırmaq qabiliyyətini; fəaliyyətinin nəticəsini, məqsədə çatmağın səmərəli yollarını aydın başa düşməsini, diqqət mərkəzinə gətirir. 2. Muxtariyyət – kollektivin fəaliyyətinin məqsədlərinin və vəzifələrinin qoyuluşunda, onun əsas istiqamətlərinin işlənib hazırlanmasında; fəaliyyətin motivasiyasının və məqsədlərinin, nəticəyə nail olma vasitələrinin, həyata keçirilmə yollarının seçilməsində müstəqillik və qeyri-asılılıq. 3. Müstəqillik - kollec rəhbərliyindən maliyyə və hüquqi baxımdan asılı olmaması. 4. Xarici mühitlə əlaqələr – kollecin idarəetmə orqanları ilə, pedaqoji kollektivlə, təsərrüfat xidməti ilə, başqa təhsil müəssisələri, ictimai və dövlət təşkilatları ilə qarşılıqlı münasibətlərdə öz ifadəsini tapır. Xarici mühit kimi tələbə özfəaliyyətinin müxtəlif formaları, gənclər və tələbə təşkilatı, maraq klubu, idman bölmələri nəzərdə tutula bilər.

Eksperimentə cəlb edilmiş kolleclərdə tələbə özünüidarə orqanları bir sıra funksiyaları yerinə yetirirdilər. Onları qeyd edək: 1) özünüfəallaşdırma; 2) fərdi və kollektiv şəkildə özünənəzarət; 3) təşkilati özünütənzimləmə.

Eksperimentə cəlb edilmiş kolleclərdə tələbə özünüidarəsinin strukturu və formaları gənclərin özlərinin hüquqi təminatları nəzərə

alınaraq formalaşdırılır.

Tələbə özünüidarəsi zamanı tərbiyə prosesi xarakterinə görə fərqlənir, aşağıdakı məsələlər diqqət mərkəzinə gəlirdi:

-könüllülük; demokratiklik; humanistlik; sosial cəhət; yaradıcı cəhət; müxtəlif variantlıq; müstəqillik və s.

Tələbə özünüidarə orqanlarının təşkili zamanı könüllülük prinsipinə xüsusilə fikir verilir.

Tədqiqat göstərdi ki, kollecin tələbə özünüidarəsi təhsilalanların sosial fəallığının formalaşdırılmasının mühüm vasitəsidir. Özünüidarə isə xüsusi orqanlara malik olmalıdır. Onların qarşısında konkret məqsəd, bu məqsəddən irəli gələn vəzifələr durur.

Dissertasiyanın **II fəsli** "**Kollec tələbələrində sosial fəalliğin tərbiyə olunmasi probleminin təcrübi məsələləri**" adlanır. Bu fəsil 4 yarımfəsildən ibarətdir. ***"Təlim prosesində kollec tələbələrində sosial fəallığın formalaşdırılması"*** adlanan yarımfəsildə aşağıdakı məsələlərə aydınlıq gətirir.

Orta ixtisas məktəblərində tədris olunan bir sıra fənlər tələbələrdə sosial fəallığın inkişaf etdirilməsi baxımından zəngin material verir. Təbii ki, bu sahədə fənn müəllimlərinin üzərinə mühüm vəzifələr düşür. Onlar mövzuların təhsilləndirici, inkişafetdirici imkanları ilə yanaşı tərbiyələndirici xarakterini də diqqət mərkəzində saxlamalı və həmin imkanlardan səmərəli şəkildə faydalanmalıdırlar.

Təlim prosesində tələbənin sosial fəallığının inkişafının pedaqoji əsasları kimi aşağıdakı müddəalar diqqət mərkəzinə gəlir:

- tələbənin sosial fəallığı onun sosial-pedaqoji münasibətlərdə təşəkkül tapır və həyat mövqeyində meydana gəlir;

-tələbənin sosial fəallığı ictimai tərəqqinin perspektivlərini proqnozlaşdırır və stimullaşdırır;

- tələbənin sosial fəallığı tərbiyəvi, təşkilati işlərin yüksək səviyyədə yerinə yetirilməsi ilə bağlıdır.

Təbii ki, tələbələrdə sosial fəallığın formalaşdırılması üçün müəllim səriştəli olmalı, həm də professorun qeyd etdiyi kimi, dərsdə yeni texnologiyalardan bacarıqla istifadə etməlidir.

Tələbələrdə sosial fəallığın formalaşdırılması baxımından orta ixtisas məktəblərinin fənn ("Pedaqogika", "Milli əxlaq və ailə etikası", "Sosial pedaqogika", "Azərbaycan tarixi") proqramlarını dərslikləri nəzərdən keçirilmiş və təhlil edilmiş, dərslərdən nümunələr verilmişdir.

Fəslin ikinci yarımfəsli ***"Dərsdənkənar tədbirlər zamanı kollec tələbələrində sosial fəallığın inkişaf etdirilməsi"*** adlanır. Pedaqoji

ədəbiyyatla tanışlıqdan görünür ki, dərsdənkənar iş iki yerə bölünür: 1. Sinifdənxaric iş. 2. Məktəbdənkənar iş.

Eksperimentə cəlb edilmiş orta ixtisas məktəblərində tələbələrdə sosial fəallığın təşəkkül tapıb formalaşması üçün dərsdənkənar işin, o cümlədən sinifdənxaric və məktəbdənkənar tədbirlərin səmərəli imkanlarından geniş istifadə olunurdu.

Tədbirlərin təşəbbüskarları bəzən kollecin rəhbərliyi, direktorun tərbiyə işləri üzrə müavini, gənclər təşkilatı, fənn müəllimləri, kitabxanaçı, bir çox hallarda tələbələr – özünüidarə orqanlarının fəalları olurdular.

Daha çox sinifdənxaric işin aşağıdakı formalarına müraciət olunurdu: söhbət, müsabiqə, yarış, viktorina, görkəmli şəxslərlə (milli qəhrəmanlarla, yazıçı, şair, rəssam, bəstəkar, müğənni, memar, alim, hüquq işçisi, əmək qabaqcılları və b. ilə), dəyirmi masa ətrafında görüşlər, müzakirə və disputlar, tələbə konfransları, klubların, studiyaların, dərnəklərin fəaliyyəti və s.

Eksperimentə cəlb edilmiş kolleclərdə keçirilmiş tədbirlər tələbələrin müsbət keyfiyyətlərini inkişaf etdirir. Bu isə o deməkdir ki, tələbə özünüidarə orqanlarının nümayəndələrində həm öz aralarında, həm tələbələrlə, pedaqoji kollektivin üzvləri ilə qarşılıqlı münasibətlərini düzgün qurmaq tələbatı formalaşacaq.

Tələbə şəxsiyyətinin təşəkkül tapıb formalaşmasında, müsbət mənəvi keyfiyyətlərinin, o cümlədən sosial fəallıqlarının inkişafında məktəbdənkənar tədbirlər mühüm əhəmiyyətə malikdir. Sosial fəallığın formalaşdırılması üzrə işə ailədə başlanır, təlim prosesində, sonra sinifdənxaric tədbirlərdə, daha sonra da məktəbdənkənar tədbirlərdə davam etdirilir. Məktəbdənkənar fəaliyyətlərində tələbələr ölkənin, cəmiyyətin, insanların mənafeyi naminə hərəkata qoşulur, ekskursiya və yürüşlərə çıxır, yarışlarda iştirak edir, tələbə konfranslarında çıxışlar edir, yaşıllıqların salınmasında və qorunmasında, kollec mikrorayonunda abadlıq işlərinin görülməsində, ətrafın, təbiətin flora və faunasının mühafizə olunmasında yaxından iştirak edirlər. Eksperimentə cəlb edilmiş kollecləri üzrə bu istiqamətdə işlər, adətən tələbə özünüidarə orqanları vasitəsilə həyata keçirilirdi.

Eksperimentə cəlb edilmiş kolleclərdə sinifdənxaric və məktəbdənkənar iş formaları kimi "18 oktyabr - dövlət müstəqilliyi günü", "Vətən üçün doğulmuşuq, Vətən üçün ölməliyik", "Anam Azərbaycanım!", "Əsas Qanunumuz", "Azərbaycan Respublikasının Prezidenti", "Vətən – anadır!", "Gözəl Vətən", "Dünya azərbaycanlılarının həmrəylik günü", "Dövlət Bayrağı günü", "Azərbaycan Respublikasının Dövlət bayrağı", "Yaddan çıxmaz Qarabağ", "Azərbaycanın milli bayramı - Novruz bayramı", "31

Mart – azərbaycanlıların soyqırımı günü”, “Xocalı harayı”, “Təbiət qoynuna səsləyir bizi”, , “Faşizm üzərində qələbə günü”, “Heydər Əliyevin anadan olduğu gün”, “Milli Müstəqillik Günü”, “12 Noyabr – Konstitusiya günü”, “17 Noyabr – milli dirçəliş günü”, “Əxlaqımızı saflaşdıraq”, “Dini dəyərlərimizə hörmətlə yanaşaq”, “Uğrunda ölən varsa – Vətəndir”, “Dünya azərbaycanlıları! Həmrəy olun!”, “O taylı, bu taylı Azərbaycan”, “Azərbaycanlılara qarşı soyqırım”, "20 Yanvar şəhidləri” “Silahlı Qüvvələr günü, “Faşizm üzərində qələbə”, “Qanlı yanvar”, “1918-ci ilin mart soyqırımı”, “Azərbaycan bir nəğmədir”, “Yurduna ağlayan ana!”, “Vətən! Torpağına, daşına qurban!”, “Layla, Xocalım, layla”, “8 Mart – beynəlxalq qadınlar günü” mövzularında söhbətlər, konfranslar, müzakirələr və s. həyata keçirilirdi.

Tələbə şəxsiyyətinin təşəkkülündə və onun muxtariyyətinin inkişafında kolleclərdə fəaliyyət göstərən tələbə özünüidarəsi özünəməxsus rol oynayır. Muxtariyyət özündə yeni bilikləri qazanmaq və onları müxtəlif vəziyyətlərdə yaradıcı tətbiq etmək üçün cəhd göstərən şəxsiyyət keyfiyyəti hesab edilir.

Tələbə özünüidarəsinin əhəmiyyətini üç mövqedən əsaslandırmaq olar:

1. Tələbə özünüidarəsi – təlim-idrak, elmi peşə və mədəni münasibətlərdə yaradıcı fəallığın həyata keçirilməsinin şərti kimi.

2. Tələbə özünüidarəsi – müvafiq hüquqi imkanlarla və məsuliyyətlə tələbə demokratiyasının real forması kimi.

3. Tələbə özünüidarəsi – sosial-hüquqi özünü müdafiə vasitəsi (resursu) kimi.

Kolleclərin eksperimentə cəlb edilmiş qruplarında tələbə özünüidarəsi sisteminin təşkilinin məqsədi intellektual, yaradıcı, özünüinkişafa qabil, insanlara humanistcəsinə yanaşan, demokratik şüura yiyələnmiş, yüksək ixtisaslı mütəxəssis kimi müasir sosial-iqtisadi tələblərə cavab verən tələbə şəxsiyyətinin inkişafı üçün zəruri şəraitin yaradılmasından ibarət idi.

İddiaçının fikrincə, aşağıdakı hallarda tələbələrdə sosial fəallıq səmərəli şəkildə tərbiyə oluna bilər:

1. Haqqında danışılan prosesinin təşkilinin vasitəsi olmaq etibarilə sosial mühitin mümkün imkanlarından pedaqoji kollektivin faydalana bilməsi.

2. Sinifdənxaric işin sosial-pedaqoji imkanlarını müəyyənləşdirmək, qabaqcadan planlaşdırma işləri aparmaq.

3. Sosial fəallığın qarşısında dayanan məqsədi, onun prinsiplərini,

sosial-pedaqoji şərtlərini, metodlarını, vasitələrinin, həyata keçirilməsinin səmərəli yollarını, sosial fəallığın formalaşması səviyyəsini özündə birləşdirən kollec tələbələrinin sosial fəallığının modelini işləyib hazırlamaq və tətbiq etmək.

Bu modelə daxildir: sosiumun ehtiyatlarından, eyni zamanda tələbə oğlan və qızın sosial tələbatlarının, qabiliyyətlərinin inkişafında onların öz imkanlarından istifadə; həmçinin sosial-pedaqoji şərtlər kompleksi əsasında həyata keçən sosial münasibətlərin bərqərar olması və s.

4. Tələbələrdə sosial fəallığı formalaşdırmağın metodik sistemini işləyib hazırlamaq.

5. Sinifdənxaric tədbirlərə tələbələrdə marağın yaradılması. Bu tədbirlərdə onların məcburiyyət olmadan, könüllü iştirak etməsi.

6. Sinifdənxaric işin bu və ya digər forması üzrə tədbirdə tələbələrin təşəbbüskarlığına geniş meydan vermək.

7. Sinifdənxaric tədbirin təşkilində və həyata keçirilməsində tələbələrin müstəqilliyinin diqqət mərkəzində dayanması.

8. Sinifdənxaric tədbirlər zamanı tələbə oğlan və qızların təşkilatçılıq qabiliyyətlərindən istifadə etmək.

9. Kollec tələbələrində sosial fəallığın mərhələlərlə formalaşdırılmasına nail olmaq.

10 Sosial tərbiyənin nəzəriyyəsi və metodikası yönümündə elmi-pedaqoji təsəvvürlərin genişləndirilməsinə imkan verən başlıca müddəalara aydınlıq gətirmək.

11. Tələbələrdə sosial fəallığın inkişafı mexanizmi fasiləsiz izlənilməsi.

Fəslin ***"Tələbələrdə sosial fəallığın formalaşdırılmasının idarə olunması məsələləri"*** adlanan üçüncü yarımsəli aşağıdakı məsələləri əhatə edir: Kollecdə tərbiyə işinin səmərəli idarə olunması bu idarəetmənin pedaqoji əsaslarının düzgün müəyyənləşdirilməsini tələbata çevirir. Pedaqoji əsaslar dedikdə, pedaqoji fəaliyyətin səciyyəvi məqsədinin, prinsiplərinin, məzmununun, forma və metodlarının qarşılıqlı əlaqəsinin, pedaqoji fəaliyyətin şərtlərinin vəhdəti nəzərdə tutulur. Kollecdə tərbiyə prosesinin idarə olunmasının pedaqoji əsasları dedikdə isə, tələbə şəxsiyyətinin özünüqiymətləndirilməsini və özünüreallaşdırılmasını təmin edən tərbiyənin məzmununun, metod və vasitələrinin məcmusu başa düşülür.

Kollecdə tərbiyə prosesinin, o cümlədən tələbələrini sosial fəallığının idarəetmə sisteminin təşkilati quruluşunun modelini iki mövqedən nəzərdən keçirə bilərik: 1) subyekt və 2) obyekt mövqeyindən.

Subyekt mövqeyi beş səviyyədə ifadə olunur: kollec direktorunun

səviyyəsi (tərbiyə prosesinin, o cümlədən tələbələrin sosial fəallığının idarə olunmasının strateji səviyyəsi); müavinin səviyyəsi (tərbiyə prosesini, xüsusən sosial fəallığı idarəetmənin taktik səviyyəsi); şöbə müdirinin səviyyəsi (texnoloji səviyyə); müəllimlərin və qrup rəhbərlərinin səviyyəsi (sosial fəallığının formalaşdırılması prosesinin operativ idarə olunması səviyyəsi); tələbələrin səviyyəsi (tərbiyə prosesini, o cümlədən tələbələrini sosial fəallığının formalaşdırılması prosesini birgə idarəetmə, birgə yaradıcılıq səviyyəsi).

Obyekt mövqeyi pedaqoji şura, metodik şura, kabinet, elmi-metodik mərkəz və s. tərəfindən təqdim edilir. Kollecdə tələbələrin sosial fəallığının idarə olunması sisteminin modernləşdirilməsi idarəetmə sub-yektlərinin (subordinasiya, koordinasiya, razılaşma) dəyişən münasibət-lərində; tərbiyə sisteminin yeni elementlərinin (şöbə müdirləri tərəfindən) təzahüründə meydana gəlir. Bundan başqa, idarəetmənin yeni səviyyəsinə – texnoloji səviyyəsinə tələbat yaranır.

Tərbiyə sisteminin formalaşdırılması, tələbələrin sosial fəallığının səmərəli şəkildə inkişaf etdirilməsi yalnız həmin sistemin elmi əsaslan-dırılmış pedaqoji idarə olunması şəraitində mümkündür.

Tipindən asılı olaraq, hər bir təhsil müəssisəsi təlim-tərbiyə sistemini özünəməxsus şəkildə qurur və bu prosesi özünəməxsus şəkildə idarə edir. Bu, həmin tədris müəssisəsinin, o cümlədən kolleclərin iş üslu-bu ilə bağlıdır. Tələbələrin sosial fəallığına rəhbərlik və bu prosesin idarəo-lunmasına sistemli yanaşma, ilk növbədə idarəetmənin obyektinə və prosesinə sistem kimi yanaşmaq deməkdir. Başqa sözlə, tərbiyə sisteminin idarə olunması bu prosesi mürəkkəb, bütöv və dinamik sistem kimi anlamaqdan və fikrən-konkret təsəvvür etməkdən ibarətdir.

Kolleclərin tərbiyəvi fəaliyyətinin səmərəliliyini təmin etmək üçün tərbiyə prosesinə yüksək səviyyədə rəhbərlik etmək və onun düzgün idarə olunmasına qayğı ilə yanaşmaq lazımdır. Əsas vəzifələrdən biri kolleclərdə tərbiyənin keyfiyyətinin idarə edilməsinə nail olmaqdır. Təhsil və tərbiyə işlərində keyfiyyət gərgin əmək, zəngin təcrübə və biliyin, kollektivlə işləmək bacarığı sayəsində yaranır. Hazırda tərbiyə texnologiyalarını tətbiq etmək və qiymətləndirmə mexanizmlərindən faydalanmaq səriştəsi, çevik idarəetmə modellərinə malik olmaq təhsilin keyfiyyətinə şərait yaradan çox vacib cəhətlərdəndir.

II fəslin dördüncü yarımfəsli ***"Orta ixtisas məktəblərinin təlim və tərbiyə sistemində tələbələrin sosial fəallığının formalaşdırılmasının səmərəlilik göstəriciləri"*** adlanır. Bu yarımfəsildə pedaqoji eksperimentin təşkili, aparılması və nəticələri barədə məlumat verilir. Eksperimentin

müəyyənləşdirici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə olunmuşdur.

Tələbələrdə sosial fəallığın formalaşması səviyyəsini müəyyənləşdirmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür: təşkilatçılıq, müstəqillik, mütəşəkkillik, təşəbbüskarlıq kimi şəxsiyyət keyfiyyətlərinin, peşə-pedaqoji bacarıqların, sosial dəyərlər haqqında hərtərəfli təsəvvürlərin formalaşması.

Orta ixtisas məktəbləri tələbələrinin sosial fəallığı onların fəal həyat mövqeyinin zəruri göstəricisidir.

Tələbələrin sosial fəallığa aid maariflənməsi səviyyəsini və sosial fəallığa yiyələnmə səviyyələrinə aid göstəricilər (eksperimentə qədər və eksperimentdən sonra) dissertasiyada öz əksini tapmışdır.

Eksperimental və kontrol qrup tələbələrinin sosial fəallığı səviyyələrinə aid göstəricilər (eksperimendən sonra) diqqət mərkəzinə gətirək:

**Eksperimental və kontrol qrup tələbələrinin sosial fəallığının səviyyəsi (eksperimentdən sonra)**

**Cədvəl 1.**

| Sıra № | Maraqlandığımız məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | yüksək (nəfərlə) | | orta (nəfərlə) | | aşağı (nəfərlə) | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | *Özünüidarə vərdişlərinə* malikdir | 73 | 63 | 13 | 14 | 2 | 11 |
| 2. | *Özünütərbiyə ilə məşğul olur* | 82 | 68 | 15 | 5 | 1 | 15 |
| 3. | *Özünənəzarəti həyata keçirir* | 77 | 64 | 18 | 7 | 3 | 17 |
| 4. | *Özünütəhsili* qayğısına qalır | 80 | 62 | 6 | 13 | 2 | 13 |
| 5. | *Təşkilatçılıq bacarığına yiyələnib* | 82 | 67 | 13 | 10 | 3 | 11 |
| 6. | *Davranış mədəniyyətinə* malikdir | 84 | 68 | 14 | 12 | - | 8 |
| 7. | *Ünsiyyət mədəniyyətinіə* yiyələnib | 80 | 63 | 6 | 15 | 2 | 10 |
| 8. | *İdarəetmə mədəniyyətinə malikdir* | 79 | 60 | 5 | 17 | 4 | 11 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9. | *Liderliyi* bacarır | 85 | 69 | 2 | 10 | 1 | 9 |
| 10. | *İcraçılıq qabiliyyəvi* var | 81 | 67 | 5 | 13 | 2 | 8 |
| 11. | *Diləmək bacarığına* malikdir | 86 | 74 | 2 | 11 | - | 3 |
| 12. | *Fəaldır* | 81 | 69 | 7 | 12 | - | **7** |
| 13. | *Sosial fəallığına* yiyələnib | 80 | 67 | **7** | 11 | 1 | 10 |
| 14. | *Təşəbbüskarlıq* göstərə *bilir* | 83 | 70 | 4 | 10 | 1 | 8 |
| 15. | *Öz hüququnu tələb etmə-yi* bacarır | 79 | 68 | 9 | 11 | - | 9 |
| 16. | *Təşkilatçılıq bacarığın* malikdir | 86 | 69 | 2 | 13 | - | 6 |
| 17. | *Təkidlidir* | 76 | 63 | 10 | 14 | 2 | 11 |
| 18. | *İşgüzardır* | 85 | 71 | 3 | 10 | **-** | 7 |
| 19. | *Obyektivdir* | 79 | 67 | 6 | 11 | 3 | 10 |
| 20. | *Şəxsi şərəf və ləyaqətini* qoruyur | 80 | 73 | 8 | 15 | **-** | **-** |
| 21. | *Kollektivin və kollecin şərəfini* qoruyur | 79 | 71 | 9 | 12 | - | 5 |
| 22. | *Səbirli, hövsələli, təm-kinlidir* | 81 | 69 | 7 | 7 | 1 | 12 |
| 23. | *Ədalətlidir* | 78 | 65 | 10 | 13 | - | 10 |
| 24. | *Məsuliyyət və cavabdehlik hissinə malikdir* | 82 | 68 | 5 | 11 | 1 | 9 |
| 25. | Fəaliyyət zamanı *çevikdir* | 79 | 66 | 8 | 9 | 1 | 13 |
| 26. | *Milli iftixar hissinə* yiyələnib | 82 | 67 | 6 | 14 | **-** | **7** |
| 27. | *Dözümlü və tolerantldır* | 80 | 71 | 7 | **12** | 1 | 10 |

*Qeyd*: Sorğuya eksperimental və kontrol qrupların hər birindən 88 tələbə cəlb edilmişdir.

Göstəricilərə əsasən deyə bilərik: "Özünüidarə vərdişlərinə yiyələnmə" (birinci sual) eksperimental qrup tələbələrinin 73 nəfərində - yüksək; 14 nəfərində - orta; kontrol qrup tələbələrinin 63 nəfərində - yüksək; 14 nəfərində - orta səviyyədə təşəkkül tapmışdır. Bu vərdişlər eksperimental qrup tələbələrinin 2; kontrol qrup tələbələrinin 11 nəfərində aşağı səviyyədə inkişaf etmişdir.

Bundan başqa, idarəetmə mədəniyyətinə eksperimental qrup tələbələrinin 79; kontrol qrup tələbələrinin 60 nəfəri – yüksək; eksperimental qrup tələbələrinin 5; kontrol qrup tələbələrinin 17 nəfəri – orta; eksperimental qrup tələbələrinin 4; kontrol qrup tələbələrinin 11 nəfəri – aşağı səviyyədə yiyələnmişdir.

Eksperiment göstərdi ki, irəli sürülən fərziyyə özünü doğrultmuş, eksperimental qrup tələbələrinin sosial fəallıq keyfiyyətlərinin səviyyəsi artmışdır.

Tədqiqatla bağlı aşağıdakı **nəticələr** əldə edilmişdir:

1. Tələbələrin sosial fəallığı şəxsiyyətin ümumi fəallığının tərkib hissəsi, əsas əlamətlərindən biri, sosial təşəkkülünün önəmli mərhələsidir. Tələbələrin sosial fəallığı təlim prosesində fənlərin bir çox mövzularının tədrisi prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı yeni keyfiyyət və tamlıq alır. Müzakirə və disputlar, söhbətlər, görüşlər, dərnək və klublar, teatr və televiziya tamaşaları, ekskursiya və yürüşlər, yarışlar, aksiyalar, olimpiadalar, axşamlar, sərgilər, müsabiqələr, turnirlər, bayramlar, divar qəzetləri və s. tələbələrdə sosial fəallıq keyfiyyətlərinin inkişafında mühüm rol oynayır.

2. Tələbə şəxsiyyətinin sosial baxımdan inkişafı onların özünüidarə fəaliyyətində uğurla həyata keçir.

3. Tələbələr sosial fəallığa, özünüidarə fəaliyyətinə, təşkilatçılıq, təşəbbüskarlıq, müstəqillik, işgüzarlıq, idarəetmə, icraçılıq və s. bu kimi maarifləndirmə dərslərini ilk növbədə fənlərin, o cümlədən Milli əxlaq və ailə etikası, Pedaqogika və Azərbaycan tarixi fənlərinin tədrisi zamanı alırlar.

4. Tədqiqat nəticəsində belə qənaətə gəldik ki, şəxsiyyətin fəallığı dedikdə, özünün əsas xarakteristikalarının (məqsədyönlülük, motivasiya, şüurluluq, fəaliyyətin üsullarına və priyomlarına yiyələnmə, emosionallıq) səmərələşdirilməsi, eləcə də təşəbbüskarlıq və situativlik kimi xüsusiyyətlərə malik olması ilə fərqlənən fəaliyyətin xüsusi növü, yaxud xüsusi fəaliyyət anlaşılır.

5. Tədqiqatdan görünür ki, tələbələrin sosial fəallığını iki başlıca cəhətə görə nəzərdən keçirmək mümkündür. Birinci cəhət. Sosial fəallığa şəxsiyyətin ilk növbədə tərbiyə, təhsil, təlim və praktik fəaliyyət prosesində təşəkkül tapan təbii xüsusiyyətləri və müsbət keyfiyyətləri ilə şərtlənən xassələri kimi yanaşılır. Bu baxımdan sosial fəallıq sosial inkişafın əhəmiyyətli nəticəsi kimi tələbə oğlan və qızların insanın sosial mühitə, sosial təcrübəyə münasibətlərini əks etdirən sosial keyfiyyətlərini özündə birləşdirir. Bundan başqa, onlara göstərilən köməkdən faydalanaraq, həm özlərinin, həm də başqalarının sosiallaşma problemlərini müstəqil şəkildə

həll etmək qabiliyyəti tələb olunur.

İkinci cəhət fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsində fəallığının rolunun tələbələr tərəfindən aydın dərk olunması ilə əlaqədardır. Sosial fəallıq orta ixtisas məktəbləri tələbələrin ictimai münasibətlər sisteminə daxilolma dərəcəsi və səviyyəsi, ictimai fəaliyyətin bütün növlərində onların iştirakı göstəricisidir.

6. Tədqiqat zamanı tələbələrdə sosial fəallığın formalaşdırılması metodlarının mahiyyətinə aydınlıq gətirilmişdir. Biz sosial fəallığa aşağıdakı tərifi verdik: tələbələrdə sosial fəallığın formalaşdırılması metodları dedikdə, tələbələrin davranışına, hisslərinə, iradəsinə və şüuruna planauy--ğun şəkildə təsir etməklə onlarda sosial fəallıq bacarıqlarının inkişaf etdirilməsi məqsədinə və vəzifələrinə nail olmaq üçün kolleclərin pedaqoji kollektivlərinin, müəllimlərin faydalandığı yol və vasitələr, üsullar sistemi anlaşılmalıdır.

7. Tələbə özünüidarəsi bir sıra əlamətlərə malikdir. Kolleclərdə həmin əlamətlərdən aşağıdakıların diqqət mərkəzində dayanması məqsədəuyğundur: məqsədyönlülük, muxtariyyət, müstəqillik, özünüidarə orqanlarının mövcudluğu, sistemlilik, kollecin idarə olunmasında iştirak, özfəaliyyət, xarici mühitlə əlaqələr.

8. Tədqiqatdan görünür ki, kolleclərdə tələbə özünüidarə orqanlarının aşağıdakı funksiyaları yerinə yetirməlidirlər: 1) özünüfəallaşdırma; 2) fərdi və kollektiv şəkildə özünənəzarət; 3) təşkilati özünütənzimləmə.

9. Tədqiqatdan görünür ki, tələbələrdə sosial fəallığın lazımi səviyyədə formalaşdırılması üçün müəyyən meyarlara əsaslanmaq lazım gəlir. Bu meyarlar kolleclərin tələbə kollektivlərinin və ayrı-ayrı tələbələrin sosial fəallığını səciyyələndirmək baxımından faydalıdır.

10. Orta ixtisas məktəblərində tədris olunan fənlərin məzmununa sosial fəallağın formalaşmasına yardımçı ola biləcək materialların daxil edilməsi lazım bilinir.

11. Sinifdənxaric tədbirlər planlaşdırılarkən tələbələrin, idarəetmə mədəniyyətinin, sosial fəallığının, təşkilatçılıq, təşəbbüskarlıq, müstəqillik keyfiyyətlərinin inkişafına kömək göstərəcək tədbirlərin keçirilməsi faydalıdır.

12. Tələbələrin sosial fəallığına nail olmaq üçün məktəbdənkənar tədbirlərin imkanlarından istifadə olunması məsləhətdir.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək olar:

1. Respublikamızın bütün məktəblərində tələbə özünüidarə orqanlarının yaradılması, səmərəli fəaliyyət göstərməsi məsləhətdir.

2. Orta ixtisas məktəblərində tələbələrdə sosial fəallığın formalaşdırılması baxımından təlim prosesinin imkanlarından istifadə olunması

məqsədəuyğundur.

3. Orta ixtisas məktəblərində tələbələrdə sosial fəallığın formalaşdırılması baxımından sinifdənxaric və məktəbdənkənar tədbirlərin imkanlarından istifadə olunması məqsədəuyğundur.

4. Vaxtlı-vatında tələbələrin sosial fəallığı tərbiyəsinin diaqnostikasın aparılması, monitorinq və qiymətləndirmənin həyata keçirilməsi faydalıdır.

5. Tələbələrin sosial fəallığı tərbiyəsinin ekspertizasının təşkili də məsləhət bilinir.

6. Vaxtaşırı tələbələrdə sosial fəallığın formalaşdırılması səviyyəsinin və tələbə özünüidarənin fəaliyyətinin səmərəliliyi göstəricilərinin orta ixtisas məktəblərinin pedaqoji şurasında müzakirə olunması və fəalların mükafatlandırılması səmərəlidir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **əsərlərdə öz əksini tapmışdır**:


1. İslam dəyərləri vasitəsilə I-IV sinif şagirdlərində etik təsəvvürlərin formalaşdırılmasının bəzi məsələləri / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda Beynəlxalq Elmi konfransın materialları, Naxçıvan, 6 dekabr, 2013, s.176

2. Tələbə fəallığının mühüm forması: sosial fəallıq / "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda Beynəlxalq Elmi konfransın materiallar, Bakı, 5-6 dekabr 2014, s.160

3. Kollecin tərbiyə sistemində tələbələrin sosial fəallığının formalaşdırılması üzrə işin bəzi məsələləri / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları, Naxçıvan, 16-17 dekabr, 2014, s. 231-232

4. Вопросы по управлению формирования социальной активности у студентов // Кыргызской Академии Образования, Бишкек, 2015, №1, с. 87-91

5. Kolleclərdə tələbələrin sosial fəallığının formalaşdırılmasının aktual problemləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №1, s. 21-24

6. Sinifdənxarixc vaxtlarda tələbələrin sosial fəallığının inkişaf etdirilməsi // Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2015, №2, s. 94-98

7. Kollec tələbələrində sosial fəallığının formalaşması pedaqoji və psixoloji problem kimi // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2015, №2, s. 110-115

8. Kollecin tərbiyə sistemində tələbələrin sosial fəallığının inkişaf etdirilməsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №3, s. 71-73

**Р.М.Алиева**

# ФОРМИРОВАНИЕ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ СТУДЕНТОВ В ОБРАЗОВАТЕЛЬНОЙ И ВОСПИТАТЕЛЬНОЙ СИСТЕМЕ СРЕДНИХ СПЕЦИАЛЬНЫХ ШКОЛ

## РЕЗЮМЕ

Во введении обосновывается актуальность проблемы, степень ее разработанности, находят свое отражение объект, предмет и задачи исследования, ее гипотеза, методологические основы, научная новизна, теоретическое и практическое значение, положения, выносимые на защиту.

Первый раздел диссертации называется «Теоретические задачи проблемы формирования социальной активности студентов колледжа». Этот раздел состоит из четырёх подразделов. В разделе уделено внимание следующим задачам: значение понятий «социальная активность» и «социальная активность студентов»; особенности формирования социальной активности студентов; формирование социальной активности студентов колледжа как педагогическая и психологическая проблема; педагогические принципы и методы, используемые при процессе формирования социальной активности студентов колледжа; студенческое самоуправление как средство формирования социальной активности.

Второй раздел под названием «Практические задачи проблемы формирования социальной активности студентов колледжа» также состоит из четырёх подразделов. В разделе выделены следующие задачи: формирование социальной активности студентов колледжа в процессе обучения; формирование социальной активности студентов колледжа во время внеклассных мероприятий; задачи управления формированием социальной активности студентов; показатели эффективности формирования социальной активности студентов в образовательной и воспитательной системе средних профессиональных школ.

Диссертационная работа завершается выводами, предложениями и списком использованной литературы

**R.M. Aliyeva**

## FORMATION OF SOCIAL ACTIVITY OF STUDENTS IN EDUCATIONAL AND TRAINING SYSTEM OF SECONDARY SPECIAL SCHOOLS

### SUMMARY

In the introduction the urgency of the problem, the degree of elaboration, are reflected object, subject and objectives of the study, its hypothesis, methodological bases, scientific novelty, the theoretical and practical importance, the provisions for the defense.The first section of the thesis called "Theoretical problems of formation of the problem of social activity of college students." This section consists of four subsections. The section is given to the following problems: the meaning of "social activity" and "social activity of students"; features of formation of social activity of students; the formation of social activity of college students as a pedagogical and psychological problems; pedagogical principles and methods used in the process of formation of social activity of college students; student government as a means of formation of social activity.The second section, entitled "Practical problems of the problem of formation of social activity of students of college" also consists of four subsections. The section highlighted in the following tasks: the formation of social activity of college students in the learning process; the formation of social activity of college students during extracurricular activities; management tasks formation of social activity of students; performance indicators of formation of social activity of students in educational and training system of secondary vocational schools.The dissertation work ends with conclusions, suggestions and bibliography.

**Министерство образования Азербайджанской Республики**

**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**РУХСАРА МЕДЖИД гызы АЛИЕВА**

# ФОРМИРОВАНИЕ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ СТУДЕНТОВ В ОБРАЗОВАТЕЛЬНОЙ И ВОСПИТАТЕЛЬНОЙ СИСТЕМЕ СРЕДНИХ СПЕЦИАЛЬНЫХ ШКОЛ

58.04.01 – Общая педагогика, история педагогики и образования

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**